UOT 327; 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.221

# AVROPA İTTİFAQININ TƏRƏFDAŞ DÖVLƏTLƏRLƏ ƏMƏKDAŞLIĞININ MÖVCUD LAYİHƏLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**GÜNEL ALLAHYAROVA**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin I kurs doktorantı*
*E-mail: gallahyarova1996@gmail.com*

## GİRİŞ

Bipolyar beynəlxalq sistemin 1992-ci ildə sona çatdığı "Soyuq müharibə"dən sonrakı dövrdə Maastrixt müqaviləsi ilə iqtisadiyyat, ədalət və daxili işlər və xarici siyasət və həmçinin təhlükəsizlik siyasətinin daşıyıcı sütunları üzərində "Avropa Birləşmiş Ştatlar"nın əsasının qoyulması hədəfi olaraq irəli sürülmüşdür. Beləliklə, inteqrasiya olunmuş Avropanın, tək və birləşik nəhəng güc kimi beynəlxalq sistemdə həlledici rol oynayan qlobal aktor halına gəlməsi planlaşdırılırdı. Bu məqsədlə bütün qitədə sürətlə artan iqtisadi, siyasi və coğrafi inteqrasiyanın tamamlanması nəzərdə tutulurdu.

Bu mərhələdə, Avropanın inteqrasiyasının institusional strukturunu təmsil edən Avropa İttifaqı, regional səviyyədə sülh və firavanlığa töhfə vermək baxımından nümunəvi regional inteqrasiya modelini təmsil etməkdədir.

Avropa İttifaqı dünya dövlətləri ilə əməkdaşlıq edərək beynəlxalq arenada həm iqtisadi, həm də siyasi müstəvidə müsbət mövqeyini qorumağı ön planda saxlayır. Xüsusilə son illərdə qeyri-üzv dövlətlərlə münasibətləri yeni mərhələyə qədəm qoyması və siyasi əlaqələrdə əhəmiyyətli irəliləyişlərin müşahidə olunması dünyada getdikcə qütbləşmənin artdığı bir dövrdə olduqca müstəsna addımdır. İttifaq ilə bu dövlətlərin strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı beynəlxalq nüfuzuna və iqtisadi gücünə də müsbət təsir göstərir. Avropa İttıfaqı tərəfdaş dövlətlərlə münasibətlərini bir neçə müstəvidə aparmaqla qlobal təsirini artırır və regional stabilliyi gücləndirir. Bir tərəfdən, İttıfaqın tərəfdaş dövlətlərlə əməkdaşlığı regional münaqişələrin həllinə və regional sabitliyin qorunmasına yönəlmiş birgə səyləri əhatə edir. Digər tərəfdən, iqtisadi əməkdaşlıq, ticarət mübadiləsi və investisiyaların artırılması İttıfaqın iqtisadi inkişafına stimul verir və regional iqtisadi münasibətlərin dərinləşməsinə səbəb olur. Əməkdaşlığın irəli səviyyəyə aparılması və nəticədə rəqib dövlətlərin tərəfdaş dövlətlərə çevrilməsi regionda təhlükəsizlik və stabilliyi artırmağa səbəb olur. Məsələn, ABŞ ilə strateji əhəmiyyətli bir çox mövzuda fərqli yanaşmalar, Çinin qlobal güc kimi yüksəlməsi nəticəsində yaranan mürəkkəb geosiyasi vəziyyət, Rusiya ilə Ukrayna böhranından sonra korlanan və hələ də problemli qalan münasibətlər və eyni zamanda bütün bunlar haqqında üzv dövlətlər arasındakı fikir ayrılığı Aİ-nin xarici siyasətini sınağa çəkən çağırışlardan yalnız bəziləridir. Birliyin tərəfdaş dövlətlərlə əməkdaşlığı bir neçə beynəlxalq və regional səviyyədəki əhəmiyyətli layihələr vasitəsilə genişlənir. Bu layihə və proqramlar üzrə Birlik ilə tərəfdaş dövlətlərin arasında artan əməkdaşlığın və inteqrasiyasının müsbət nəticələri zaman keçdikcə digər qeyri-üzv dövlətlərin də İttifaqa qoşulmaq istəyinə sövq edir.

## Avropa Qonşuluq Siyasəti

İlk nümunə olaraq, Avropa İttifaqı üçün onun qonşuluğunda sabitlik və təhlükəsizlik məsələsi vacibdir. Məhz bu məqsədlə Avropa İttifaqı şərq və cənubdakı qonşuları ilə əməkdaşlığı əhatə edən "Avropa Qonşuluq Siyasətini" yaradıb. Avropa Birliyinin son illərdə vurğuladığı strateji siyasət alətlərindən biri olaraq; Aralıq dənizi, Şərqi Avropa və Cənubi Qafqaz ətrafında qonşu və ya yaxın dövlətlərlə hərtərəfli tərəfdaşlıq və əməkdaşlığı nəzərdə tutan yeni Avropa Qonşuluq Siyasətidir. Avropa Qonşuluq Siyasəti (ENP) Aİ-nin 16 ən yaxın Şərqi və Cənub qonşuları ilə münasibətlərini tənzimləyir. Avropa Qonşuluq Siyasəti (ENP) Avropa İttifaqının sərhədlərinin cənubunda və şərqində yerləşən qonşu ölkələrə münasibətdə xarici siyasətidir və bu ölkələrlə əməkdaşlığın əsas mexanizmidir. Avropa qonşuluq siyasətinin məqsədi Avropa İttifaqının sabitliyini, təhlükəsizliyini və rifahını qonşu ölkələrlə bölüşməkdir. Əsas prinsiplərdən biri daxili islahatların həyata keçirilməsində qonşu ölkələrə kömək etmək istəyidir. Avropa Qonşuluq Siyasəti demokratiya, sabitlik və rifahı yaymaqla vahid və azad Avropa ideyasını həyata keçirməyə xidmət edən Avropa İttifaqı ilə qonşu ölkələr arasında siyasi, iqtisadi və mədəni yaxınlaşma prosesini dəstəkləyir. Sözügedən ölkələrin tamhüquqlu üzvlük olmasa belə, İttifaqın siyasi, iqtisadi və sosial dəyərləri çərçivəsində inteqrasiyasını özündə ehtiva edən qabaqcıl baxışı

olan bu siyasətin ortaya çıxması əsasən Birliyin üzləşdiyi çox mühüm problemlərin həllinə və Birliyin bəzi qlobal strategiyalarının həyata keçirilməsinə yönəlmişdir [2, s.43]. Birinci məqsəd baxımından Birliyin məruz qaldığı qeyri-qanuni immiqrasiya, narkotik və qadın ticarəti və enerji çatışmazlığı problemlərinin həllində istifadə edilməsi nəzərdə tutulan Avropa Qonşuluq Siyasəti; İkinci məqsəd baxımından İttifaqın təsir dairəsini genişləndirmək və qlobal balanslarda söz sahibi olmaq vasitəsi kimi nəzərdə tutulur.Fəaliyyət planı qonşuluq təşəbbüsünün bütün ölkələri ilə münasibətlərdə ümumi prinsiplərə əsaslanır, amma onun məzmunu konkret ölkə ilə mövcud əməkdaşlığın səviyyəsinə, ölkənin ehtiyaclarına və ümumi maraqlarına görə fərqlənir. Fəaliyyət planının həyata keçirilmə prosesinə Avropa İttifaqının Xüsusi Komissiyası və Avropa Xarici Fəaliyyət Xidməti nəzarət edir (European External Action Service) və ildə bir dəfə Avropa İttifaqı fəaliyyət planının icrasına dair hesabat dərc edir.

### Şərq Tərəfdaşlığı

Şərq Tərəfdaşlığı (ŞT) Avropa Qonşuluq Siyasətinin (ENP) 2009-cu ildə istifadəyə verilən xüsusi hissəsidir. Bu tərəfdaşlığın məqsədi Avropa İttifaqı, ona Üzv dövlətlər və altı Şərqi Avropa, Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna kimi tərəfdaş ölkələr ilə siyasi və iqtisadi əlaqələri gücləndirmək və dərinləşdirməkdir.

Şərq Tərəfdaşlığı proqramı İqlim Dəyişikliyi üzrə Paris Sazişi və BMT-nin 2030-cu il üzrə proqramı və Dayanıqlı İnkişaf Məqsədləri kimi bir çox siyasət məqsədlərinə çatmağa dəstək verir. O Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə Qlobal Strategiyasında Aİ-nin qonşularının sabitliyi, rifahı və dayanıqlığının artırılması ilə bağlı ümumi məqsədə öz töhfəsini verir.

Aİ, ona üzv ölkələr və tərəfdaş ölkələr Şərq Tərəfdaşlığı üzrə aşağıdakı məqsədlər üzrə birgə çalışacaqlar [5, s.32]:

• möhkəm, dayanıqlı və inteqrasiya olunmuş iqtisadiyyatlar üçün əməkdaşlıq;

• cavabdehlik daşıyan qurumlar, qanunun aliliyi və təhlükəsizlik üçün əməkdaşlıq;

• ətraf mühit və iqlim dəyişikliyi sahəsində dayanıqlığın əldə olunması üçün əməkdaşlıq;

• dayanıqlı rəqəmsal transformasiya üçün əməkdaşlıq;

• möhkəm, ədalətli və inklüziv cəmiyyətlər üçün əməkdaşlıq.

### Cənub Qaz Dəhlizi layihəsi

1997-ci ildən bünövrəsi qoyulmuş bu dəhliz 2003-cü ildə layihənin rentabelsizliyi ehtimalı, eyni zamanda, digər təzyiqlərin və bürokratik proseslərin nəticəsi olaraq reallaşmamışdı. Nəhayət, "Cənub Qaz Dəhlizi" layihəsinin təməli 2014-cü ilin sentyabr ayının 20-də qoyulub. Bununla da, Azərbaycan qazı ilə Avropanın təchiz edilməsinə start verildi. 2014-cü ildə bu proseslərin hüquqi status alması, proseslərdə idarəçiliyin daha yüksək səviyyədə aparılması məqsədilə Prezident İlham Əliyev tərəfindən Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. 2015-ci ildən isə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantıları keçirilməyə başladı və bu günədək davam edir. Aİ ilə Cənubi Qafqaz ölkələri arasındakı tərəfdaşlıq münasibətlərində 2014-2017-ci illər arasındakı dövrdə Cənub Qaz Dəhlizi, Tanap, tap və Yeni Əsrin müqaviləsi kimi layihələrə start verilmişdi ki, bunlar enerji sahəsindəki əməkdaşlığın perspektivlərini aydın şəkildə göstərirdi. Bununla da, regiondakı dövlətlərin əhəmiyyəti Avropa İttifaqı üçün artmışdır. Xüsusilə Azərbaycan ilə İttifaq arasında Adriatik Boru Kəməri (TAP), Trans Anadolu Boru Kəməri (TANAP), Cənub Qaz Dəhlizi kimi enerji layihələri ilə yeni mərhələdə tərəfdaşlıq və əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Azərbaycanın mühüm geostrateji ərazidə – Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi onun regiondakı əhəmiyyətli aktor rolunun əsas səbəblərindən biridir. Azərbaycanın təşəbbüsü ilə reallaşan meqa layihə – Cənub Qaz Dəhlizi regionun hazırkı mürəkkəb geosiyasi vəziyyəti fonunda Avropa ölkələrinin enerji tələbatını ödəməklə paralel, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində inkişafa əhəmiyyətli təsir göstərir [1, s.4]. CQD-nin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Təməli "Əsrin müqaviləsi"nin 20 illiyi qeyd edilən gün – 2014-cü ilin sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. Azərbaycandan İtaliyayadək uzanan, 3500

kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi 7 ölkənin iştirakı ilə qurulub və ilbəil yeni interkonnektorlarla bu sistemə qoşulmaq təşəbbüsləri çoxalır. Nəticə etibarilə, Azərbaycan bu gün Cənub Qaz Dəhlizi vasitəsilə 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Bu baxımdan təsadüfi deyildir ki, Aİ liderləri tərəfindən Azərbaycan "etibarlı tərəfdaş qaz təchizatçısı" kimi tanınır. Təqdirəlayiq hal ondadır ki, Avropa ölkələri hər zaman birgə əməkdaşlığa can atan tərəf kimi daha çox ön plandadırlar, müxtəlif siyasi platformalarda, forum və görüşlərdə enerji hasilatını artırmaq üçün təşəbbüslər irəli sürür, təkliflər edirlər [9, s.70]. 2022-ci ilin iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"-nun imzalanması da bu fikirlərin təsdiqidir. "Qoca qitə"nin enerji təhlükəsizliyinə ciddi töhfələr verən Cənub Qaz Dəhlizi təkcə iqtisadi deyil, həm də siyasi cəhətdən daim dünyanın aparıcı dövlətlərinin xüsusi marağındadır. Bu baxımdan Avropa İttifaqı ilə yanaşı, ABŞ-nin layihənin reallaşması yönündə verdiyi mühüm dəstəyi də diqqətə çəkmək olar. Xüsusən də Donald Trampın birinci hakimiyyəti dövrü CQD-nin reallaşması istiqamətində ciddi addımların atılması ilə nəticələnib. Cənub Qaz Dəhlizi artıq qitələri birləşdirən, ölkələrarası siyasi yaxınlaşmanı təmin edən, mədəni əlaqələri gücləndirən, iqtisadi əməkdaşlığı dərinləşdirən universal beynəlxalq platformaya çevrilib. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı". Bu layihə çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyanın komanda şəklində qazandığı nailiyyət təqdirə layiqdir.

Xatırladaq ki, TANAP Türkiyə-Gürcüstan sərhədində birbaşa Cənubi Qafqaz Boru Kəməri (SCP) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-la birləşəcəkdir. TANAP-la bağlı Azərbaycan və Türkiyə respublikaları arasında Anlaşma Memorandumu 24 dekabr 2011-ci il tarixində imzalanmışdır. TANAP layihəsi üzrə Türkiyə Respublikası və TANAP şirkəti arasında "Tranzit Ərazisinə Malik Ölkənin Hökuməti ilə Saziş" Azərbaycan və Türkiyə respublikaları arasında "Hökumətlərarası Saziş" 26 iyun 2012-ci il tarixində imzalanmış və hər iki dövlətin müvafiq hüquqi instansiyaları tərəfindən ratifikasiya olunmuşdur [9, s.82].

TAP Türkiyə-Yunanıstan sərhədində birbaşa TANAP-la birləşəcək və Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən keçərək təbii qazı Cənubi İtaliyaya nəql edəcəkdir. Təbii qazın Azərbaycan Respublikasından Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu təşkil etdiyi üçün TAP-ın Avropa Birliyinin enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsinə görə strateji məqsədlərində əsas rol oynayacağı gözlənilir [7]. Bundan əlavə, TAP lazımi təqdirdə təbii qazın Cənub-Şərqi Avropaya yönəltmək üçün texniki imkanlara malik olacaqdır. TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan respublikaları arasında "Hökumətlərarası Saziş" 2013-cü ilin fevral ayında imzalanmışdır. TAP-ın təməlqoyma mərasimi 17 may 2016-cı il tarixində keçirilmişdir.

### INOGATE Proqramı

INOGATE Proqramı - Avropa İttifaqı, Qara dəniz ətrafı və Xəzər dəniz ətrafı ölkələr, həmçinin onlarla qonşu ölkələr arasında energetika sferası üzrə beynəlxalq əməkdaşlıq layihəsidir. INOGATE Proqramı çərçivəsində həyata keçirilən layihələr Avropa Komissiyası tərəfindən maliyyələşdirilir və onların icraçıları da müvafiq tender əsasında ölkələrin heç bir iştirakı olmadan AK tərəfindən müəyyənləşdirilir. INOGATE Proqramı öz fəaliyyətinə 1995-ci ildə başlayıb, ilkin vaxtlarda ancaq neft və qaz sahəsini əhatə edib. Sonradan tərəfdaş ölkələrin əməkdaşlığı bu proqramın səlahiyyətlərinin genişləndirilməsi üçün müəyyən potensialların və arzuların mövcudluğuna gətirib çıxarıb [11].

Bu prosesdə INOGATE Tərəfdaş ölkələrin 2004-cü ildə Azərbaycanda keçirilən Nazirlər Konfransında qəbul edilmiş "Bakı təşəbbüsü" mühüm rol oynayıb. İştirakçı dövlətlər bu görüşdə öz regionlarında regional enerji bazarının inkişafına dəstəkdə, enerjidaşıyıcıların dayanıqlı və təhlükəsiz nəqlində, yeni enerji infrastrukturlarının yaradılmasına investisiyaların cəlb olunması üçün ölçülər götürülməsində, enerji səmərəliliyi siyasəti və proqramının yerinə yetirilməsində, həmçinin onların enerji bazarlarının Aİ bazarına inteqrasiyasında tədricən müvəffəqiyyət əldə olunmasında ümumi maraqlarının

olduğunu təsdiq ediblər.

INOGATE Proqramının inkişafında digər mühüm bir addım 2006-cı ilin noyabr ayında Qazaxıstanda keçirilmiş Nazirlər Konfransı hesab edilir. Konfransın yekun sənədi olaraq Astana Bəyannaməsi imzalanıb. Sənəd vasitəsilə Aİ, Qara Dəniz və Xəzər Dənizi hövzəsi ölkələri arasında enerji üzrə əməkdaşlığın aşağıda qeyd edilmiş olan 4 prioritet sahə üzrə həyata keçirilməsi müəyyənləşdirilib:

1. İştirakçı ölkələrin xüsusiyyətləri nəzərə alınmaqla Aİ daxili enerji bazarının prinsiplərinə uyğun olaraq enerji bazarlarının yaxınlaşdırılması (Enerji bazarının liberallaşdırılması üçün qanunvericilik, tənzimləyici və institusional bazanın uyğunlaşdırılması);
2. Enerji nəqli şəbəkələrinin təhlükəsizliyinin və etibarlılığının möhkəmləndirilməsi [4, s.107];
3. Enerji səmərəliliyi, enerjiyə qənaət və bərpa olunan enerji mənbələri, enerjidaşıyıcıların hasilatının, nəqlinin və istifadəsinin ekoloji aspektləri məsələlərinin həlli yolu ilə dayanıqlı inkişaf siyasətinin həyata keçirilməsi;
4. Ümumi maraq kəsb edən enerji layihələrinin investisiya təminatına dəstək.

**"Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri"**

Son bir neçə ildə Aİ-nin Çinlə münasibətləri dünyada baş verən müxtəlif hadisələrin təsiri altında özünəməxsus şəkildə dəyişməyə başlamışdı. Əslində ikitərəfli, iqtisadi əməkdaşlığa diqqət yetirməklə Aİ-Çin münasibətləri qlobal tərəfdaşlığa çevrilib. Ümumilikdə, Aİ-nin Çinə qarşı mövqeyi daha realist və qətiyyətli olub. Eyni zamanda, Aİ Asiyanın digər ən vacib tərəfdaş ölkələri ilə də əməkdaşlığı gücləndirir. Xüsusilə Yaponiya, Cənubi Koreya, Hindistanla münasibətlərdə yeni bir inkişaf mərhələsinin başladığı özünü göstərməkdədir. Çin isə öz növbəsində Aİ-yə münasibətdə geosiyasi nəticələri olan və həqiqətən də təsirli siyasət həyata keçirir. Aİ-nin Çinlə münasibətləri o qədər çoxşaxəlidir ki, onları hansısa sadə prizmadan nəzərdən keçirmək olmaz [6, s.109].

2019-cu ildə tərəflər arasında gündəmə gətirilən və Aİ-yə üzv olan bütün ölkələrin dəstəyini almış "Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri"ndə qeyd edilir ki, Çin eyni zamanda Avropa İttifaqı üçün qarşılıqlı əməkdaşlığın hər iki tərəfin maraqlarına cavab verən tərəfdaşdır. Onu da deyək ki, Çin də daxil olmaqla fövqəldövlətlərlə əməkdaşlığa vahid Avropa yanaşmasının hazırlanması heç vaxt sadə məsələ olmayıb. Çünki məsələyə münasibətdə Aİ-nin hər bir ölkəsinin öz mövqeyi, siyasi, iqtisadi və incə maraqları var. Bundan başqa, Çinin özü bəzən Avropa İttifaqı üzvləri arasında olan bu fikir ayrılıqlarından mümkün qədər öz maraqlarının təmin edilməsində istifadə etməyə çalışır. Ancaq təbiidir ki, Aİ-yə üzv ölkələr arasında lazımi kollektiv intizamı saxlamaq avropalıların öz işidir. Birlik nüfuzun rəhnidir, axı Aİ-nin ən iri ölkələri belə təkbaşına fövqəldövlətlərə təsir göstərə bilmirlər.

Aİ-Çin münasibətlərində daha bir aydın ümumi prioritet isə yaşıl bərpa strategiyasının müəyyənləşdirilməsi, ekoloji enerji mənbələrinə keçidin sürətləndirilməsi və Paris razılaşması çərçivəsində iqlim dəyişikliyinə qarşı öhdəliklərin yerinə yetirilməsi üçün təcili yardım paketlərindən istifadə edilməsidir. Bundan başqa, gələcəkdə pandemiyalardan daha effektiv müdafiəni təmin etmək üçün bugünkü böhranın ilkin səbəblərinin hərtərəfli, müstəqil elmi təhlili aparılmalıdır.

İkitərəfli əlaqələr sahəsində Aİ ilə Çin arasında hərtərəfli investisiya razılaşması haqqında çoxdan aparılan danışıqların uğurla başa çatması hər iki tərəfin ümumi qaydalar əsasında iqtisadi tərəfdaşlıq qurmaq əzmində olmasının mühüm siqnalı olardı. Eyni şəkildə, Çinin sənaye subsidiyalarına və texnologiyanın məcburi köçürülməsinə dair öhdəliklərinə riayət etməsinin monitorinqini keçirmək lazımdır [6, s.112].

Aİ və Çin tez-tez münasibətlərin çoxtərəfli qaydada təşviq edilməsinə və BMT sistemini dəstəkləməyə hazır olduqlarını bəyan edirlər. Lakin tərəflər arasında müəyyən məsələlərə münasibətdə fikir ayrılıqları da özünü göstərməkdədir. Xüsusi ilə insan hüquqlarının müdafiəsi sahəsində Çində olan ağır vəziyyət Avropa tərəfindən kəskin şəkildə tənqid atəşinə məruz qalır. Çinin bundan əlavə BMT-nin Dəniz hüququ Konvensiyasını kobud şəkildə tapdalayaraq Cənubi Çin dənizində gərginliyə səbəb olması da Avropada narazılıqlarla qarşılanır [10].

Belə bir vəziyyətdə Avropa Çinin insan hüquqlarına əməl etməməsinə qarşı ciddi bir təzyiq vasitəsini ortaya qoya bilmir. Çünki qarşılıqlı münasibətlərdə qarşıdurma Avropaya yaxşı heç nə vəd etmir. Ona görə də Avropa insan hüquqlarının tapdalanması sahəsində Çinə münasibətdə sərt addımlar atmaqdan çəkinir və bunun mənasız olduğunu anlayır. Bu baxımdan pandemiya göstərdi ki, bey-

nəlxalq aləmdə qlobal təhlükələrə qarşı təkbaşına mübarizə aparmaq mümkün deyil və bu məsələdə tərəflər birgə hərəkət etməlidirlər. Konkret olaraq Avropa İttifaqı-Çin münasibətlərinin gələcəyinə gəlincə bu məsələdə hər şey pandemiyadan sonra dünyanın siyasi gələcəyinin hansı inkişaf yolunu seçməsindən asılı olacaq.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əsgərov N. Mühüm siyasi və iqtisadi maraqları kəsişdirən meqa layihə – Cənub Qaz Dəhlizi. "Şərq qapısı" qəzeti.*

*2. "A Strategy for EU Foreign Policy". EU Institute for Security Studies, Report 7, June 2010.*

*3. Emmanouilidis, A. Janis. "Alternatives between Full Membership and NonMembership – Fata Morganaor Silver Bullet?", Paper for the conference The EU and itsNeighbours: In Search for New Forms of Partnership, Sounio: 2008.*

*4. Hadeshian, Nanar. "European Union's External Relations: More Consistency?", Yearbook of Polish European Studies, Warsaw: Centre for Europe (2010): 107- 127.*

*5. Muller, Patrick. ve Nicole Alecu de Flers, Applying the Concept of Europeanization to the Study of Foreign Policy: Dimensions and Mechanisms, Institute for European Integration Research, Working Paper Series, Working Paper No. 05/2009, Viyana: 2009.*

*6. Yu, Jie, (2017), "After Brexit: Risks and Opportunities to EU–China Relations", Global Policy Vol.8, N.4, pp. 109–114.*

*7. Anadolu Ajansı, AB-Doğu Ortaklığı Zirvesi başladı, Erişim Tarihi: Temmuz 31, 2018. https://www.aa.com.tr/tr/dunya/ab-dogu-ortakligi-zirvesi-basladi/977399*

*8. Baykal, Sanem. "Avrupa Birliği'nde Yetki Sorunu ve Lizbon Antlaşması." Avrupa Birliği'nin Güncel Sorunları ve Gelişmeler. Belgin Akçay, Sevilay Kahraman ve Sanem Baykal (Der.), Ankara: Seçkin, 2008.*

*9. Uğur, Ömer, (2018), "Uluslararası Sistemde Avrupa Birliği'nin Aktörlülüğü: Ortak Dış Ve Güvenlik Politikasının Etkisi", Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, Vol.58, pp. 70–82.*

*10. https://top-center.org/az/tehlil/3030/avropa-ittifaqi-cin-geoiqtisadi-munasibetleri-cinin-avropadaki-investisiyalari-ve-ittifaqin-tehlukesizliyi*

*11. https://www.europarl.europa.eu/cmsdata/219065/Workshop_l_said_issa_presentation.pdf*


## AVROPA İTTİFAQININ TƏRƏFDAŞ DÖVLƏTLƏRLƏ ƏMƏKDAŞLIĞININ MÖVCUD LAYİHƏLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

## XÜLASƏ


Məqalədə Avropa İttifaqının tərəfdaş dövlətlərlər əməkdaşlığının mövcud layihələri və inkişaf perspektivləri çərçivəsində Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı, Cənub Qaz Dəhlizi layihəsi, Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri kimi mövzular barədə söz açılıb. Göstərilmişdir ki, Avropanın inteqrasiyasının institusional strukturunu təmsil edən Avropa İttifaqı, regional səviyyədə sülh və firavanlığa töhfə vermək baxımdan nümunəvi regional inteqrasiya modelini təmsil edir. Qeyd edilmişdir ki, Avropa İttifaqı dünya dövlətləri ilə əməkdaşlıq edərək beynəlxalq arenada həm iqtisadi, həm də siyasi müstəvidə müsbət mövqeyini qorumağı ön planda saxlayır. Xüsusilə son illərdə qeyri-üzv dövlətlərlə münasibətləri yeni mərhələyə qədəm qoyması və siyasi əlaqələrdə əhəmiyyətli irəliləyişlərin müşahidə olunması dünyada getdikcə qütbləşmənin artdığı bir dövrdə olduqca müstəsna addımdır. İttifaq ilə bu dövlətlərin strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı beynəlxalq nüfuzuna və iqtisadi gücünə də müsbət təsir göstərir. Avropa İttifaqı üçün onun qonşuluğundakı ölkələrlə sabitlik və təhlükəsizlik məsələsi olduqca vacibdir.



**Açar sözlər:** *qonşuluq, təhlükəsizlik, əməkdaşlıq, inkişaf perspektivi, siyasi müstəvi.*


## AVRUPA BİRLİĞİ'NİN ORTAK DEVLETLERLE İŞBİRLİĞİNİN GÜNCEL PROJELERİ VE GELİŞME BEKLENTİLERİ

## ÖZET


Makalede, Avrupa Komşuluk Politikası, Doğu Ortaklığı, Güney Gaz Koridoru projesi, mevcut projeler çerçevesinde AB-Çin ilişkilerinin geliştirilmesine yönelik stratejik perspektifler ve Avrupa Birliği'nin ortak ülkelerle işbirliğinin gelişme beklentileri gibi konular ele alınıyor. Avrupa bütünleşmesinin kurumsal yapısını temsil eden Avrupa Birliği'nin, bölgesel düzeyde barış ve refaha katkı

sağlaması bakımından örnek bir bölgesel bütünleşme modeli oluşturduğu ortaya konulmuştur. Avrupa Birliği'nin, dünya güçleriyle iş birliği yaparak, hem ekonomik hem de siyasi açıdan uluslararası alanda olumlu konumunu sürdürmeyi önceliklendirdiği kaydedilmiştir. Özellikle son yıllarda AB üyesi olmayan ülkelerle ilişkilerin yeni bir evreye girmesi ve siyasi ilişkilerde önemli ilerlemeler kaydedilmesi, dünyada kutuplaşmanın arttığı bir dönemde atılmış çok istisnai bir adımdır. Bu devletler ile İttifak arasında stratejik ortaklık ve işbirliği ilişkilerinin gelişmesi, bu devletlerin uluslararası itibarına ve ekonomik gücüne de olumlu etki ediyor. Avrupa Birliği açısından komşu ülkelerle istikrar ve güvenlik konusu son derece önemlidir.

**Anahtar kelimeler:** *komşuluk, güvenlik, işbirliği, kalkınma perspektifi, siyasi düzey.*

## CURRENT PROJECTS AND DEVELOPMENT PROSPECTS OF THE EUROPEAN UNION'S COOPERATION WITH PARTNER COUNTRIES

## SUMMARY

The article discusses topics such as the European Neighborhood Policy, the Eastern Partnership, the Southern Gas Corridor project, and strategic perspectives for the development of EU-China relations within the framework of existing projects and development prospects of cooperation between the European Union and partner countries. It is shown that the European Union, which represents the institutional structure of European integration, represents an exemplary regional integration model in terms of contributing to peace and prosperity at the regional level. It is noted that the European Union prioritizes maintaining its positive position in the international arena, both economically and politically, by cooperating with world countries. Especially in recent years, the fact that relations with non-member states have entered a new stage and significant progress has been observed in political relations is a very exceptional step at a time when polarization is increasing in the world. The development of strategic partnership and cooperation relations between these states and the Union also has a positive impact on their international reputation and economic power. For the European Union, the issue of stability and security with its neighboring countries is very important.

**Keywords:** *neighborhood, security, cooperation, development perspective, political level.*